# Son səs: Dirilmə... kimliyə qayıdış

## "Ölməyən sevginin dastanı" əsərindən parçalar



*Əli Rza XƏLƏFLİ*

Əziz dostum, bilirsənmi bu diyarda mən kiməm?
Yol gedirik bir zamanda, bir qatarda - mən kiməm?
Od içindən keçdi yolum, hələ yenə oddayam,
Soruşuram qürub çağı - günbatarda mən kiməm?

Qələm tutan çox olsa da, az tapılar söz yollu,
Az tapılar mənim kimi... hanı indi köz yollu.
Axtar, ara, taparsanmı bir kimsəni düz yollu.
Görmüsənmi mənim kimi etibarda, mən kiməm?

Söz sinəmdə saçaq-saçaq dənə dolmuş sünbüldü,
İlham pərim başım üstə bir nəğməli bülbüldü;
İlk sevgidən üzü bəri duyğularım gül-güldü,
Öz əhdimlə sınanmışam dostda, yarda, mən kiməm?

Bir ömürlük qəm evimdə qazandığım kədərdi,
Savaş açdım vüsal üçün, deməndim ki, hədərdi,
Pay-pay böldüm yazdığımı çörək dərdi, ev dərdi.
Sərvətliyəm - kitab-kitab, dövlət-varda, mən kiməm?

Tək deyiləm, baş-başayam, həmdəmim var yanımda,
Eşqə sadiq etiqadım - damarımda, qanımda:
Daşıyıram qocalığın ağrısını canımda,
Kövrəlirəm baxa-baxa, bu qübarda mən kiməm?

Bir ömürdə ümid yedim öynəm-öynəm, biləsən,
Çəkdiyimi sözə çəkdim aynam-aynam biləsən;
Ayrılığın ağrısı var göynəm-göynəm, biləsən,
Türkmənçayda, Gülüstanda, Bəxtiyarda - mən kiməm?

Bu dünyanın karvanında- öz köçündə şairəm,
Tamahım yox nə varında, nə heçində, şairəm.
Hər kəlməsi, hər misrası od içində şairəm,
Könül alan söz tapılar sənətkarda, mən kiməm?

Vətənoğlu Bəhmən gəlsə, məna gəzər, söz dərər,
Talıb oğu Haqverdinin nəzərləri düz görər;
Mən düşdüyüm bu daşqına sinəsini kim gərər,
Ustadların özü deyər, gür axarda mən kiməm?

Halalım var, haramlıqda - gözüm olmaz dünyada.
Mən bilirəm nə yazmışam - sözüm solmaz dünyada,
Zənn etmə ki, mən gedərəm izim qalmaz dünyada.
Hər açılan dan üzündə - gündoğarda mən kiməm?

İnciməzsən, gözlərindən sevgi dərsəm, əzizim,
Kam alaram istəyimi gülən görsəm, əzizim;
Əzəlimdən, axırımdan xəbər versəm, əzizim,
Soruşsalar deyərsənmi, son baharda mən kiməm?

Mən Qurbani xələfiyəm, Xələflidə küləyəm,
Qarabağdan Qaradağa Təbriz yollu diləyəm;
Xudafərin körpüsündə durna salmış lələyəm,
Ruhum inlər Araz boyu - Şəhriyarda mən kiməm?

Bu dünyada hər adam kimliyində yeriyir,
Dəmliyində yeriyir, kəmliyində yeriyir.

Hər kəsin əməlində gəlir qismət yazısı,
Bəxti bilər - ağlayır, gülür qismət yazısı.

Çox qazandım, az yedim, az qazandım çox yedim.
Çox oldu, ya az oldu, bu da bəsimdir, - dedim.

Bəxtimə ruzi bildim Vətənimin dərdini,
Hörmətə layiq bildim bu Vətəndə hər dini.

Millətimin çəkdiyi mənim də ağrım oldu,
Hər göynəkdən od alan ürəyim, bağrım oldu.

Çəkilmədim kənara, odda gördüm özümü,
Sözüm ilə yandırdım ocağımı, közümü.

Mən «Ölməyən sevginin dastanı»na dil dedim,
Gələcək nəsillərə doğru, düzü bil, - dedim.

Öz dostum İsaxanla bir gəldim uzun yolu,
Qəlbindən işıq aldım, nurlandı sözün yolu.

O çağırdı məni də sözün gülüstanına,
Qonaq etdi təbimi «Bir sevgi dastanı»na.

Beləcə bir yazıldı baxtımızın yazısı,
Bir kitabda cəmləndi vaxtımızın yazısı.

Bu yerdə son nöqtəyə oxucum izin vermir,
Küskün baxır bağıma, sözümdən qönçə dərmir.

Deyir hanı İlqarın sonrakı taleyi bəs,
Kimi necə ələdi dövranın ələyi bəs?!

Bir sevgi qurbanıydı harda qaldı Nanamız,
Vaxtsız xəzan içində necə soldu Nanamız.

Nərminəni soruşar bu əsəri oxuyan,
Vüqarı da unutmaz mənaları toxuyan.

Xuraman, Gülya, Sevinc... hamısı yadımdadır,
Bu gənclərin hər biri yanğımda, odumdadır.

Fərman, Rəhman var idi İlqara dayaq olan,
Dostluqdan nişanədir yaddaşda, yadda qalan.

Fizik Fərrux müəllim sözümdən keçib mənim,
Sözümün bulağından, çeşməmdən içib mənim.

Hələ Artur, Stepan... yadımdan çıxmır onlar,
Necə deyim bu günə uzaqdan baxmır onlar.

Sveta Mixaylovna Nananın anasıydı,
Nananın xalası da dərdinə yanasıydı.

Oxucu unudarmı Nananın atasını,
Sevgisinin odunda yananın atasını.

Hə, Sergey Radionov... türkə nifrət beşiyi,
Özünə borc bilirdi ədavətə keşiyi.

İndi yada salıram mən hər kəsi büsbütün,
Oxucum, ya razı qal, ya da inci, küs bütün.

Hər kəs necə var idi yazmışdım bu dastanda,
Bilirəm axtaracaq kim, nəyi bu bostanda.

Qoy olsun, nə deyirəm... bir qərinə vaxt keçib,
Bəlkə, hər kəs bəxtinə ayrılan bir yol seçib.

Oxucum yaxşı bilir, çox keçmədi qan düşdü,
Bu qarğaşa içində bəxt qırıldı, can düşdü.

Mənfur Zori Balayan... sözünün bəstəliyi,
Dəhşət, bəla gətirdi erməni xəstəliyi.

İrəvanda, Göyçədə qatillər qan tökdülər,
Saxta dostluqlarının himini də sökdülər.

Zəngəzur, Dərələyəz qan ağladı talanda,
Erməni vəhşiliyi tanınmadı yalanda.

Qarabağ da işğalda alova bürünmüşdü,
Qovğada Rusiyanın iç üzü görünmüşdü.

Qaçqın, köçkün olanlar Bakıya axışırdı,
Çarəsiz siyasilər vurnuxur, baxışırdı.

Bakıdan, Sumqayıtdan ermənilər çəkildi,
Hər kəs də məramınca bir yer seçdi, əkildi.

Nana da xalasıyla Rusiyaya üz tutdu,
Bəlkə də dumanlıqda o, yolunu düz tutdu.

Sergey Rodionov da Xankəndinə getmişdi.
Orda separatçıların yanlarında bitmişdi.

Azərbaycan kəndləri talanırdı o zaman,
Bu talanda Sergey də olmuşdu bir qəhrəman.

Onun əməllərindən cana doyur Sveta,
Axır bir gün Sergeyə o da deyir əlvida.

Rusiyaya üz tutub - Nanasının yanına,
Möhtac olub o, özü qızının hayanına.

Bu kindən, ədavətdən çox ailələr dağıldı,
Sevgi dolu könüllər zərbə aldı, yağıldı.

Sergey də cəzasına Hadrutda çatdı bir gun,
Quşçularda vuruldu, sonuna yetdi bir gün.

Qədim türkün yurd yeri, ulu türkün ocağı,
Qəhrəman oğulların qeyrət, hünər qucağı.

Oğullar qoruyurdu yurdun səngər kəndini,
Qəşəmin dəstəsində hər kəs əsgər kəndini.

Qarabağ savaşının hələ əvvəl çağıydı,
Quşçular bu savaşda bir qalaydı, dağıydı.

Dostum Qəşəm danışır: səngərdə bir erməni,
Lovğa-lövğa deyirdi tanı məni, gör məni.

Saymazyana qışqırır - hardasan, ay musurman,
Sən də üzə çıx görüm, niyə oldun susurman.

Mən silahı götürdüm, kəsim acı dilini
Birdəfəlik endirsin hədələyən əlini.

Bir atəşə yıxıldı... qalanları qaçdılar,
Qorxaq simalarını bir qaçışla açdılar.

Biz səngərə çatanda öz qanını içmişdi,
Güllə ağzından dəyib, boynundan da keçmişdi.

Cibindəki pasportu açıb özüm oxudum,
Bakıda doğulmuşdu, gördüm... yozum oxudum.

Soy adı Rodionov - indi də yadımdadır,
Zaman ötdü, tarixlər döndü də yadımdadır.

Unutmuram hələ də hayın adı Sergeydi,
Bir yaşlı erməniydi, kinindən paltar geydi.

Qarabağ döyüşçüsü Qəşəmin dedikləri,
Düşüncəmə yol qoydu, belə çəkdim təhəri.

Allahdan gələn cəza bəzən belə gec olur,
Atalar doğru deyib: gec olsa da, güc olur.

*(Davamı 9-cu səhifədə)*

# Son səs: Dirilmə... kimliyə qayıdış

## “Ölməyən sevginin dastanı” əsərindən parçalar

*(Əvvəli 8-ci səhifədə)*

Bu gecikən ölüm də zamanın sabahıydı,
İki sevən ürəyin haqq üzünə ahıydı.

Artur, Stepan, Gülya... keçib zaman, qərinə,
Onlar da yollandılar Volqa sahillərinə.

Fərman, Rəhman yadımda... İlqarın dostlarıydı,
Dostluqda sadiq, möhkəm, vəfaları varıydı.

Sonradan qayıtdılar, döndülər Borçalıya,
Qürbət Vətən deyil heç - kim bağlaya, calıya.

İndi də İlqar ilə əlaqə saxlayırlar,
Dostlar yenə İlqarı böyük qardaş sayırlar.

Bizim fizik Fərrux da... gərək ki, yadda qalar,
İlqarın sevgisinə «beş»i də adda qalar.

İndi böyük alimdir, İlqarla da görüşür,
Hərdən də zarafatla Nananı da soruşur.

Xuramanla Sevinc də nənəliklə öyünür,
Hər birinin ürəyi nəvələrlə döyünür.

Mənim əziz oxucum, daha kim qaldı yazım,
Daha kimin şəninə dillənsin könül sazım.

Dünya şöhrətli alim - kim tanımır Vüqarı,
Nə yazsa, nə söyləsə, olur sözün baharı.

Kəşfləri, kitabları əbədi sərvət qalar,
Milli yaddaş yoluna işıq olar, nur olar.

Təhsildə təşkilatçı, elmdə novatordu,
İntellekti, zəhməti aləm yaratdı, qurdu.

Taledən gələn zərbə ondan da yan keçmədi,
Amansızdır əcəl də yaxşı, pisi seçmədi.

Vüqarın sevdalısı, sadiq həyat yoldaşı,
Hər işdə arxadaşı, onun könül sirdaşı.

Nərminənin adına «öldü» yaza bilmirəm,
Əcəldən gələn qəza... hökmü poza bilmirəm.

İlqarı da qorudu bir ana qayğısıyla,
Həyan oldu qəlbinə öz bacı sayğısıyla.

Müəllim Nərminənin özü gözəl anaydı,
Analığı bir yana, sənəti bir yanaydı.

Ağıllı övladların anasıydı Nərminə,
Sevgisi əvəz oldu hər namaza, hər dinə.

Onun Dünya məktəbi yaşarı bir ocaqdı,
Öz adını yaşadan müqəddəs pir, ocaqdı.

İlqarla son görüşdən yadımda qalanları,
Oxucum hali olsun, qoy bilsin olanları.

O uğursuz sevgidən İlqar döndü, qayıtdı,
Sinəsinə qor basan yangı söndü, qayıtdı.

Volqanın sularında bitirdi sevgisini,
Beləcə axırına yetirdi sevgisini.

İztiraba, əzaba dözdu, dayandı, durdu,
Mənliyinə güvənib qalxdı, oyandı, durdu.

Çox keçməmiş özü də döndü Vətənə gəldi,
İstəyinə can atdı, bəxti bitənə gəldi.

Elmi iş də götürdü, tanınmış alim oldu,
Özünə güvənənə həyat işıqlı yoldu.

Vüqar da dayaq durdu sözünün yardımıyla,
Məqsədə yetdi İlqar özünün yardımıyla.

Ailə qurdu, evləndi doğma bir el qızıyla,
Ömrünə bahar gəldi qovuşdu öz yazıyla.

Elmiranın qayğısı, nəvazişi hər zaman,
İlqara ilham verdi, çəkildi, getdi duman.

Bir əhvalat da burda yaddaşdan üzə çıxdı,
Keçdi uzaq yolları, dərədən düzə çıxdı.

Bir kitabın arası Nanadan iz saxlayıb,
Qovub zamanı, vaxtı burda fürsət haxlayıb.

Nananın şəkli idi... məktub da oxunmuşdu,
Gördüyü Elmiranın qəlbinə toxunmuşdu.

Bəzən izlər yuyulmur zamanın yağışıyla,
Qayıdıb yara vurur nəzəri, baxışıyla.

İlqar evə gələndə onu çox küskün gördü,
Desin, mənim Elmiram: - nə olub, - deyə sordu.

İncik-incik göstərdi o şəkili, məktubu,
Hər sözündə ağrılı, dərd çəkili məktubu.

Budur səni incidən, qəmləndirən, əzizim,
Gözlərinə qəm salıb nəmləndirən, əzizim.

Odlu sözlər yazılmış Nananın məktubuydu,
Bir zaman öz eşqində yananın məktubuydu.

Nana sanki yalvarır şəkildən boylanaraq,
Danışırdı səssizcə öz odunda yanaraq.

Amma İlqar bu odda Qarabağı görürdü,
Vətənin sinəsində yanan dağı görürdü.

Məktubu, şəkili də parça-parça elədi,
Sanki qara əməli öz qanına bələdi.

Elmiranın gözündə işıq yandı təzədən,
Qövsü-quzeh sevgisi al boyandı təzədən.

Mən də xoşbəxt İlqara burda uğur dilədim,
Bəxtimizə ulayan qurda uğur dilədim.

Yaddaşımda göynəyən yaralar, dərələr var,
Bələnində fürsəti gözləyən bərələr var.

Vulkanların yatağı sönsə də közlər qalır,
Neçə kamsız məhəbbət, ağlayan gözlər qalır.

Şəhid-şəhid qayalar, keşik çəkir yaddaşa,
Tarix də düşünməyə fikir əkir yaddaşa.

Mən bu əsər boyunca can əritdim, qan keçdim,
Qisasçılıq hissindən uzaq oldum, yan keçdim.

Əziz dostum İsaxan, yurdun açıq qolları,
Gəl-gəl deyə çağırır Qarabağın yolları.

Allahı çağırmışdım bu yazıya gələndə,
İlhamımla sevindim söz üzümə güləndə.

Sevinirəm, İsaxan, sözümə dayaq durdun,
Qəlbimdə sarsılmayan könül sarayı qurdun.

Sevinərəm sözümüz işıq olsa gözlərə,
Qoy ürəklər qızınsın söz içində közlərə.

Ey könül, darılmadım, sənsizlikdən bezmədim
Özüm ilham pərimi yad göylərdə gəzmədim.

Açdım könül evimi dostlarım qonaq olsun,
Söz bilməyən kəslərə qoy sözüm qınaq olsun.

Salam olsun sabaha, alovlansın dan üzü,
Qanlardan uzaq olsun bu dünyanın can üzü.

Çağırıram bəxtimi Nizamidən pay gəlsin,
Açsın könül kitabı inci-inci say, gəlsin.

Ulu Şeyxin ruhunu işıq bildim, yol tutdum,
Sözün uca dağına qucaq açdım, qol tutdum.

Dedi bir təxmis elə, bilsinlər mən də varam,
Adımı görənlər də sevinər, ümidvaram.

Mən də təxmis elədim ulu Şeyxin sözünü,
Əsərimə gətirdim ocağını, közünü.

Təzə külək əssin görək, qoy dağlardan duman keçsin,
Uzaq yolu başa varmaq asan olsun, uman keçsin;
Yola çıxdın tələsmə heç, qoy qadanı sovan keçsin,
"Cavanlıq köç edər, qoyma, gedər əldən, zaman keçsin,
İnanma bir daha burdan qəribi-karivan keçsin."

Paxılların sayı artar gur işığın göründükcə,
Sürtülmüşlər ayaq alar sən abıra büründükcə,
Başın nələr çəkdi sənin it ağzından qorunduqca;
"İtən gənclik sorağılə qocalar yer süründükcə,
Büküldü bel, bu mümkünmü ömür daim cavan keçsin?"

Şirin üçün Bisutunu aşiq Fərhad alar, qafil,
Qorunarsa eşqin yolu yenə abad olar, qafil,
Öz eşqində vəfasızlar, bil ki, ad-ad solar, qafil
"Əziz ömrü şirin tut ki, keçər, bərbad olar, qafil!
Qədir bil, vermə gəl əldən həyati-cavidan keçsin!"

İnsanlıqda payı olmaz, hər kim ki, oldu ürəksiz,
Ürəksiz olan kimsəni görərsən gəzər diləksiz,
Ürəksizlik, diləksizlik edər hər kəsi gərəksiz,
"Canı can verib alsaydın bilərdin qədrini şəksiz,
Bilərmi oğru mal qədrin, ələ yaxşı-yaman keçsin."

İnsanlığın cıdırında yeri olan alar adlıq,
Doğmalıqla bir araya sığışarmı olsa yadlıq,
Könül evi tikilməzdi , olmasaydı bir bünyadlıq;
"Nə qəmlərdən qəm əksilməz, nə bir nöqsan tapar şadlıq,
Günün istər qara keçsin, ya istər şadiman keçsin."

Xələflini qəm evində görsən ona xoş gün dilə,
Qapısını bağlamaz heç, eşqin dərdi hər gün gələ,
Qoyma məni sükut ilə, sən Tanrıdan bir ün dilə;
"Nizami, varsa eşqin coş nəvayi-ərğənun ilə,
Əlində saqinin gəlsin şərabi-ərğəvan keçsin"

Heç bezmədim, zamanımdan min bir yara alsam da mən,
Qəhərimi bir yağmadım bulud- bulud dolsam da mən,
Sən əbədi bir baharsan, həsrətinlə solsam da mən;
Bir gün gələr gəzən olar, sənsizlikdə qalsam da mən,
Əli Rzanın xəyalından qoy dolansın güman keçsin.

***SON***

***2025.***

